## Audit

*Mehdi Babayev*
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

### Məhdud məsuliyyətli cəmiyyətlərin nizamnamə kapitalının aşağı olmasının nəticələri

Hazırkı dövrdə Azərbaycanda hüquqi şəxs yaratmağın ən sadə və rahat yolu digər təşkilati-hüquqi formalı müəssisələrlə müqayisədə MMC-lərin yaradılmasıdır. Yaradılmasında sadə qanuni tələblər olduğundan təsisçilər (sahibkarlar) sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyərkən müəssisənin bu növünü yaratmağa üstünlük verirlər. İlkin olaraq müəssisə yaradılanda güman edilən nizamnamə kapitalı formalaşdırılır ki, bu vəsaitlər də əsas fondların əldə edilməsi, normal istehsal-təsərrüfat fəaliyyətinin aparılması üçün lazım olan dövriyyə vəsaitlərinin, həmçinin qeyri-maddi aktivlərin alınması üçün nəzərdə tutulur.

Lakin dövlət qeydiyyatından keçən MMC-lərin böyük əksəriyyətinin nizamnamə kapitalının miqdarının həddindən aşağı olduğu hamıya bəllidir. Hətta nizamnamə kapitalı 1 manat və ya 2 manat olan MMC-lərin də dövlət qeydiyyatından keçməsi halları mümkündür. Göründüyü kimi, MMC-lər çox kiçik sərmayələr qoyulması yolu ilə yaradılır və bu hal MMC-nin gələcək fəaliyyətində problemlərin yaranması riskini ortaya qoya bələr.

MMC qeydiyyatdan keçərkən onun nizamnamə kapitalı çox kiçik ola bilər. Qeydiyyat anında nizamnamə kapitalını böyük göstərməklə müəyyən qədər nəzərə çarpmamaq siyasəti güdən iş adamları az deyildir. MMC-nin sonraki fəaliyyəti dövründə təsisçilər (payçılar) öz vəsaiti hesablarına nizamnamə kapitalını artıra bilərlər.

Nizamnamə kapitalının kiçikliyinin təhlilini aparmaq üçün qanunvericiliyə nəzər salaq.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 89-cu maddəsinin tələbinə görə, MMC-nin nizamnaməsində mütləq qaydada göstərilməli olan məlumatlardan biri nizamnamə kapitalının miqdarı haqqındadır. Həmin Məcəllənin 90.1-ci maddəsində göstərilir ki, cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Əgər MMC kiçik sərmayələrlə yaradılırsa, bu halda kreditorların mənafeyinə təminat verən kapitallaşmadan söhbət gedə bilməz. 90.1-ci maddədə həmçinin göstərilir ki, cəmiyyətin nizamnamə kapitalının miqdarı onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən az ola bilməz. Burada «kreditorların mənafeyi» dedikdə MMC-nin yarana bilən kreditor öhdəliklərinin məbləğinin nizamnamə kapitalının məbləğinə uyğunluğu kimi başa düşülsə də, praktikada kreditorlar hətta kiçik nizamnamə kapitalı olan MMC-lərlə müqavilələr bağlamaqdan çəkinmirlər. Maddənin tələbindən aydın olur ki, MMC kiçik nizamnamə kapitalı formalaşmaqla yaradılsa da, sonradan krebitor öhdəliklərin yaranması ehtimalından asılı olaraq payçılar MMC-nin nizamnamə kapitalını artırmaq məcburiyyətindədirlər ki, kreditorların mənafeləri təmin olunsun. Məsələn, bank krediti almaq istəyən MMC sahibləri kreditin məbləğinə təminat verən nizamnamə kapitalının olması barədə düşünməlidirlər. Lakin qanunvericilik bank təşkilatına nizamnamə kapitalı aşağı olan MMC-yə kredit verilməsini qadağan etmir.

MMC-lərdə audit zamanı uyğunsuzluq kimi aşkar edilən hallardan biri də çox kiçik məbləğdə nizamnamə kapitalı olan MMC-nin böyük məbləğdə bölüşdürülməmiş mənfəətinin, kapital ehtiyatlarının və ya əlavə kapital məbləğlərinin olmasıdır. Hətta 100 minlərlə manat aktivləri (əsas və dövriyyə vəsaitləri) olan MMC-lərin 10 və ya 20 manat nizamnamə kapitalı vardır və eyni zamanda böyük məbləğdə bank krediti öhdəlikləri mövcuddur.

Məntiqcə MMC-lər ya böyük məbləğlərdə saxladığı bölüşdürülməmiş mənfəəti, ehtiyat və əlavə kapitalını birbaşa nizamnamə kapitalının artırılmasına yönəltməlidir, ya da mənfəəti tam bölüşdürməli (dividendlər verməli) və ehtiyat və əlavə kapitalın lazım olan qədərini saxlamaqla qalanını nizamnamə kaptalına yönəltməlidir. Bu məntiq sahibkarın mənfəət əldə etməsi marağına əsaslanır. Mənfəətin payçılar arasında bölüşdürülməsi Mülki Məcəllənin 90-1.3.1 və 90.1.3.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla həyata keçirilə bilər. Belə ki, xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi qərarının qəbul edildiyi anda cəmiyyət qanunla müəyyən edilmiş müflisləşmə və ya iflas əlamətlərinə uyğun gəlirsə və ya həmin qərarın qəbul edilməsi nəticəsində belə əlamətlər əmələ gələcəksə, cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından

azdırsa və ya həmin qərarın qəbul edilməsi nəticəsində onun məbləğindən az olacaqsa belə qərar verilə bilməz, yəni mənfəət payçılar arasında bölüşdürülə bilməz. Bu o halda baş verə bilər ki, MMC-nin əvvəlki hesabat dövrlərindən yığılmış ödənilməmiş zərərləri vardır ki, həmin zərər məbləği xalis aktivlərin məbləğini kapitalın məbləğindən aşağı salan amil kimi çıxış edir. Qanunun da tələbinin məntiqi ondan ibarətbir ki, MMC-nin xalis aktivlərinin onun nizamnamə kapitalına bəyabərliyi təmin edilsin: xalis aktivlər = aktivlər çıxılsın öhdəliklər. Öhdəliklərin çoxluğu xalis aktivlərin azalması ilə nəticələnir ki, bu da nizamnamə kapitalına olan bərabərliyi pozur. Ona görə də sahibkarlar xalis aktivlər və kapital (nizamnamə kapitalı, ehtiyat kapitalı və digər kapital növlərinin cəmi) bərabərliyinə nəzarət etməlidir.

Audit zamanı kapitalın hərəkəti haqqında hesabata dair qeydlər zamanı kapital elementlərinə aid uyğunsuzluqlar barədə, o cümlədən yığılmış ödənilməmiş zərərin, kiçik məbləğdə nizamnamə kapitalının, yığılmış ehtiyat və əlavə kapitalın və xalis aktivlərin MMC-nin maliyyə sisteminə təsiri barədə rəylərin əks etdirilməsi məqsədəmüvafiq hesab edilə bilər.